## Mirzə MİRİMLİ - 65

# ŞEİRLƏRİN YURD MƏZARI

*(Əvvəli ötən sayımızda)*

Şair həmişə, hər yerdə görünən obrazdır. Çünki onun ürəyində yanan ocağın işığı üzündən, gözündən də görünür. Alim yaşadığı mühitdə müəyyən məkan dairəsində görünməyə bilər, bəlkə də az görünər. Amma şairin təbiət etibarı ilə həyatı onu əhatə edən mühitlə daha çox bağlıdır. İnsanlar şairə ümid işığı kimi baxır. Müşküllərdən çıxış yolunu şairin sözündə arayırlar.

Mirzə Mirimli anadan şair doğulub. Bəlkə ilk addımlarını atanda da, ilk sözlərini dilinə gətirəndə də qeyri-adi görünüb. Mən onu ilk gəncliyindən tanıyıram. Bir mizantrop həqiqətçiliyi də xarakterinin, təbiətinin içindən qırılmayan xətt kimi keçir. Hətta birisinin haqqında həqiqətə sadiqliyinə görə xoş sözlər demək istəyəndə də rənglərin qatı olacağından çəkinib. Düz sözünün, yaxşı sözünün boğazdan yuxarı tərif kimi səslənəcəyindən də ehtiyatlanıb. Mənə qalsa, deyərəm ki, elə şairin birinci keyfiyyəti düzü düz, əyrini əyri - nə varsa, olanı "həmvar" yazmaqdır.

Mistik düşüncədə həyatda nə varsa, baş verənlərin hamısını Allahın adı ilə bağlamaq az qala dini hökmə çevrilib. Mirzə Mirimli bu hökmü qəbul eləmir. Çünki əgər hər şeyin böyük səbəbkarı Allah olsaydı, onda onun özünün də çiyinləri bu qədər yükün altında tab gətirməzdi. Mirzənin "Ay aman" adlı bir şeiri var. 03.09.1993-cü ildə yazılıb, hər halda tarix belə göstərir. Epiqrafında yazıb: "Doğma kəndimi tərk etdiyim gün".

İnsanın doğulub-böyüdüyü yerindən, yurdundan, bir sözlə, vətənindən, baş qoyub uyuyacağı torpaqdan ayrılması elə canın candan ayrılması qədər iztirablıdır, həyəcanlıdır, həsrətlidir, yandırıcıdır, yaxıcıdır. Bəlkə də çoxları Mirzəni başa düşə bilər, amma başa düşməyənlər də olar. Və başa düşməyənlər o kəslər olar ki, onlar şairin yaşadığı hissləri, həyəcanları heç vaxt yaşamayıblar. Axı insanın yerindən, yurdundan məcburən ayrılması, onun oxumağa getməsi, səyahətə çıxması, daha yaxşı yaşamaq arzusu ilə yerini dəyişməsi demək deyil və insan bu dəhşətli ayrılığın məqamında tanrıya da asi olsa, onun günahı yoxdu. Mirzə belə bir asiliyi həmin günlərdə yaşayıb və onun fəryadları "Ay aman" şeirində qədərincə görünür:

*Zamanın əlindən, çərxin əlindən,*
*Odlanıb alışdım, yandım, ay aman!*
*Fələkdə ədalət, insaf yoxmuş,*
*Daşlara çırpılıb, sındım, ay aman!*

*Kor taleyin üzü döndü, nə döndü,*
*Qara yellər ocağımı söndürdü.*
*Babəkin qolları kəsilən gündü,*
*Qəhr edib hər şeyi dandım, ay aman.*

*Bir bayatı dedim, dilim gəlmədi,*
*Örtdüm gözlərimi, əlim gəlmədi.*
*Tanrıya yalvardım, ölüm gəlmədi,*
*Közərdim, közərdim, söndüm, ay aman.*

Çox asanlıqla başa düşmək olar ki, bu şeirdə "Ay aman" ritorikası həm də elə "Ay Allah" xitabıdır. Bəlkə də Mirzə həmin anlarda özünün ədalət düşüncəsi ilə insanların günahını, əməlini Allahın adına yazmaq istəməyib.

Mirzə Mirimli kifayət qədər tanınan, ictimailəşmiş şairdir. O, Cəbrayıl rayonunun Qovşuqlu kəndində doğulub. GPU-nun tarix fakültəsini bitirib (1975), ali kateqoriyalı tarix müəllimidir və təqaüdə çıxana qədər pedaqoji andına sadiq qalıb. Məktəbdən, şagirdlərdən ayrılmayıb. Çoxlu almanaxlarda ardıcıl olaraq yazıları dərc olunub. Amma onun çoxlu kitab müəllifi olmaq istəyindən kamsız qalması ilk sevgisini itirməyi ilə bağlıdır. Hər halda mən belə düşünürəm və bu ilk sevgi onun Gəyən çölünə, türk ruhunu daşıyan boz yovşanlığa həsrəti ilə bağlıdır. Bəli, ilk



sevgi elə vətənindir, yurdundur deyənlər bu mənada səhv etmirlər.

İlk sevginin daşa çırpılması... Mirzə Mirimlinin 150-yə qədər şeiri dəftər-kitab şəklində öz evinin içində yanıb. Evdən uzaqlaşandan sonra təpədən qayıdıb sonuncu dəfə Qovşudluya baxır, evlərinə baxır. Alovlanan evin içində yanan şeirlərinin ağrısını, yanğısını ilk dəfə canında hiss edir. Və beləcə Mirzənin ilk kitabı ilk sevgisinin məzarına gömülür.

Yanan evin məzarlığında uyuyan şeirlər... Mirzənin "Bu sevdanın sonu yoxmuş..." kitabına 5-10 cümləlik son sözü var. Özü yazıb: "Evim şeirlərimin əbədi məzarına çevrildi". Açığı, bu bir cümlə mənim qəlbimi çox göynətdi. Demək, müharibə təkcə itirilən torpaqlar deyil, yanan evlər deyil, həm də müharibə insanlığa, dünyanı haqqa, ədalətə çağıran düşüncələrin qətliamıdır. Beləcə, Mirzənin kitaba qədərki yolu sarsıntılarla, daxili-mənəvi çırpıntılarla müşayiət olunaraq günümüzəcən gəlib çatıb. Və nə yaxşı ki, özü demiş, sevdasının sonu bitməyib. Yəqin ki, elə sevdaların sonu çatanda insan özü də ölür, əlbəttə, ruhən ölür. Cismən yaşasa da, bir dəyəri olmur.

"Bu sevdanın sonu yoxmuş..." kitabı 140 səhifəlik bir topludur. Elə bil ki, Mirzə bu kitaba şeirlərini yığarkən sanki dünyanın beş günlüyünü də gözünün altına alıb. Hətta mizantrop həqiqətçiliyini də elə bu kitabın mahiyyətinə toplayıb. Nötqəsinəcən, vergülünəcən, şeirlərin məzmun baxımından bölgüyə ayrılmasınacan hər şeyə diqqət göstərib. Lap elə klassik ədəbiyyatın şah divanxanalarında hazırlanan qüsursuz divanlarına bənzər hazırlanıb. Kitabda "Gecələr yuxuda bir kənd görürəm", "Dəli də olmadıq belə dünyada", "Bir gözəl küsdürdüm", "Bizim papaq qoyan vaxtımız keçib" bölmələri və kitabın sonunda bir poeması - "Bir kəndin nağılı" da (ixtisarla) verilib. Bölmələrdən də göründüyü kimi şeirlərin məzmunca qruplaşması onun həyata, dünyaya münasibətinin təzahürü kimi duyulur.

Birinci bölmədə "Adam kimi ölmək olmur" adlı şeir bir şair üsyanının misralara yığılmış enerjisidir:

*Qara dərdi görmək olmur,*
*Dərd içində gülmək olmur,*
*Adam kimi ölmək olmur,*
*Gerçəyi yalan dünyada.*

*Bu yoxuş yordu dizimi,*
*Qalmayıb köhlən dözümü,*
*İp verin asım özümü,*
*Boşalıb dolan dünyada.*
*Zor gələndə qara qorxu,*
*Kimdi sayan varı, yoxu,*
*Haqq yolundan dönüb çoxu,*
*Namərdi kalan dünyada.*

*Tanrı götürdü zülümü,*
*Daş altda qoydum əlimi,*
*Dişim saxladı dilimi,*
*Filanı-filan dünyada.*

Mirzə bu şeiri əzbər bilir. Hərdən görüşəndə də "Şair, bu dünyadan ağlın nə kəsir?" sualıma elə bu şeirlə cavab verir. Mirzənin bu şeirinin vaxtı ilə "Xudafərin" qəzetində dərc olunmasına da nail olmuşdum. İndi o vaxtdan düz 32 il keçir. Dəyişən zamanlar, təzadlı dünya həqiqətləri, acısı şirininə qarışmış, zəhəri bala, balı zəhərə çevrilmiş dünyamızın gücü çatmadı Mirzəni dəyişməyə. Aralıdan baxanda boyca bir az balaca görünür. Yaxınlaşdıqca qaralığı, görünüşü elə də fotogenik təsir bağışlamır. Amma yaxşı deyirlər ki, insan dilinin arxasında dayanıb. Beş-üç kəlməlik söhbətdən sonra onun az qala bir dünyaya bəs edəcək işığa büründüyünü heyranlıqla müşahidə edirsən. Qaralığını da irsi yox, əzaba çevrilmiş həqiqətlərin yandırdığı, kösəvə çevirdiyi görüntü kimi dərk edirsən və mənə elə gəlir ki, Mirzə həmişə danışdıqca hər sözündə bir arpa boyu böyüyür və sözünün sonunda onu daha uca görürsən.

Onun "Bu sevdanın sonu yoxmuş..." kitabının birinci bölməsinə daxil edilmiş bir poeması da var: "Tapdanmış qeyrət". Doğrudur, müəllif bu əsəri uzun şeir kimi kitaba daxil edib. Amma əslində göstərdiyi arena, özündə ehtiva etmiş olduğu acı həqiqət mənzərəsi, ən başlıcası, dəqiq və aydın sujet xətti, mükəmməl obrazları... sadalaya biləcəyimiz daha başqa əsasları ilə bu əsər yığcam bir poemadır. Və onu da deyərdim ki, əgər köçkünlük dövrünün acı mənzərəsini göstərən əsərlər hansısa səbəbdən bir dünya ekspertinin gözündən qıraqda qalsaydı və təkcə bu əsər üzdə olsaydı, məlum dövrün acı mənzərəsini kifayət qədər BMT-nin tribunasından göstərmək gücündə olardı. Heç cürə bu əsərdən yan keçə bilmirəm. Lap elə hissə-hissə, bənd-bənd olsa da, oxucularıma bu şeirin Səttar Bəhlulzadə rəng sehrini göstərmək istərdim:

*Tapdanmış qeyrətdi bu çadır şəhər,*
*Dərdinə bürünüb yatır on ildi.*
*Qədim Şamaxıdı, ulu Gəncədi,*
*Hayqıra-hayqıra batır on ildi.*
*Burda piranilər ağzı duyalı,*
*Naləsi göylərə çatmır, ay aman!*
*Yuxuma kənd girir bağçalı, bağlı,*
*Bağında bülbülü ötmür, ay aman!*

*Burda bir ilimiz on il əvəzi,*
*Batan günəş kimi sozalır çadır.*
*Burda igidlərin bağlıdı dizi,*
*Dünyanın üzütək bozarır çadır.*

Müəllif çadır şəhərinin mənzərəsini yaradır. Və onu Şamaxı zəlzələsindən, Gəncə zəlzələsindən sonra insanların çöl-biyabana tökülməsinə bənzədir. Bu yerdə qocanın ahı, amanı, duası tanrıya yetmir. Bu yerdə bir günün on ilə əvəz olması dəhşəti də şair düşüncəsindən yana-yana keçir. Ən başlıcası, şair həqiqətlərə göz yuman dünyanın bozarmış sifətinə bənzədir çadır şəhərlərini.

Sanki müəllif belə bir acı şərt qoyur; bəli, həqiqətlər belə yanarmış.

Mirzənin düşüncə mühiti, həqiqət axtarışı dünyaya gələn körpələrin çığırtısı ilə müşayiət olunur. Bəxtinə, ömrünə qarğayan qocaların çadırda yumulan gözlərini həsrətin dəfn etdiyi həqiqətlər kimi görür:

*Nə göyün altıdı, nə yerin üstü,*
*Burda tanrının da qulağı kardı.*
*Daha bacamızdan çıxmaz o tüstü,*
*Bilinmir payızdı, yoxsa bahardı.*

*Çadırda dünyaya körpələr gəlir,*
*Getdiyi, gəldiyi yolu çadırdı.*
*Çadırda doğulub, böyüyən kəsin*
*Obası, vətəni, eli çadırdı.*

*Bəxtinə, ömrünə qarğayan qoca,*
*Çadırda dünyaya gözünü yumur.*
*Mənim millətimin qızı, gəlini,*
*Çadırda yadlardan sədəqə umur.*

Müəllif bənd-bənd, misra-misra daxili dünyasında yaranmış dəhşət mənzərəsini gəzir, gözüylə gördüklərinin əks-sədasını öz qəlbində tapır. Və sanki dünyanın hansı kümcümdəsə gizlənmiş olan Allahı axtarır. Elə bil Allahı ona görə axtarır ki, o, bu günahların kimin ayağına yazılacağını ondan soruşsun:

*Kimin günahıdı çəkirik burda,*
*Üz tutub göylərə ulayır dərdim,*
*Yurd salıb içimdə qəm büküm-büküm,*
*Qudurub özümü dalayır dərdim,*
*Üz tutub göylərə ulayır dərdim.*

*Qonaqlı-qaralı, haraylı çadır,*
*Bu xalqın, millətin utanc yeridi.*
*Üç saylı, beş saylı, "en" saylı çadır,*
*Harın məmurların qazanc yeridi.*

*Bura hər diyardan cənablar gəlir,*
*Avropadan gəlir, ATƏT-dən gəlir,*
*BMT-dən gəlir, baş kənddən gəlir.*
*Görürəm üzləri çox üz görübdü,*
*Qara eynək altından baxan missioner,*
*Elə bil dəvədə buynuz görübdü,*
*Görürəm üzləri çox üz görübdü.*

Siyasətin düzgün qurulmayan sarayına baxır. Azadlığa can atan xalqın düşdüyü girdaba baxır. Yolun haradan, necə keçəcəyini tanımadığı yad adamların çadırlara laqeyid-laqeyid gəzən nəzərlərində axtarır. Ölüvay, heç nədə kara gəlməyən deputat missiyası, seçkidən-seçkiyə dil-dil ötən vəkillərin bol-bol vədləri havada qalır.

**(Davamı 15-ci səhifədə)**

# ŞEİRLƏRİN YURD MƏZARI

*(Əvvəli 13-cü səhifədə)*

Şair yanıb-yaxılır, yalnız öz istəklərinə görə yolunu çadırdan salanların gözlərinin altına yığılmış gizli niyyətləri izləyir və təzadlı mənzərə kimi seçkidən-seçkiyə canlanan çadırın əslində insan evi deyil, ölən arzuların, istəklərin məzarı olduğunu göstərir:

*Seçkidən-seçkiyə calanan çadır,*
*Millət vəkilinin güvənc yeridir,*
*Səsə axışanın qazanc yeridir,*
*Elə bil bostandı, bazardı çadır.*
*Neyləsin yuvası, yurdu dağılmış,*
*Kasıba gor evi, məzardı çadır,*
*Elə bil bostandı, bazardı çadır.*

*Sənə qışqırıram, ey kar qulaqlar,*
*Səndən soruşuram dübbə papaqlar,*
*Kürsüdən bağırıb biz-biz deyənlər,*
*Halalı, harama qatıb yeyənlər.*

*Qocası Allahdan gor dilənirsə,*
*Yadlara uzanan əl dilənirsə,*
*Çadıra bürünüb el dilənirsə,*
*Sallana-sallana gəzməyə nə var.*

Faciəli mənzərədir, çadıra bürünüb dilənməyin Azərbaycan mənzərəsidir. Ümumiyyətlə, bu şeirin (poemanın) ehtiva etdiyi motivləri gözlərimin önünə gətirdikcə İkinci Qarabağ savaşında müsəlləh olan xalqın birliyini yaradan gücün mənbələrindən birinin də Mirzə kimi şairlərin düşüncəsindən gələn bu tipli yazılarla bağlayıram.

Mirzə Mirimli bu şeirdə kifayət qədər etirazlarını da çatdırır. Elə bil ki, bu etirazlar bir daş yumruğa dönüb xalqın başına çırpılır. Onu müsəlləh olmağa, öz birliyinə güvənməyə çağırır. Bir sözlə, Mirzənin dəhşətli ittihamları (Papaq itirmişik, çadır tapmışıq, ay tanrım, sən elə, sən elə iş yarat, silsin bu çadırı tufan, aparsın) hakimin son hökmü kimi səslənir.

Bütün hallarda əsərin təsir gücü həm də oxucu yaddaşına yazılması ilə bağlıdır. Və indi deyin görək bu epizodları necə yaddaşdan silmək olar:

*"Şuşa" şadlıq evi, "Laçın" ticarət,*
*Ürək daşdan olsa, dözməyə nə var.*
*"Qarabağ", "Cəbrayıl" çal-çağır yeri,*
*Bir hava çaldırıb süzməyə nə var.*

*Qeyrəti boynunda piy olan qardaş,*
*Çadırda ümiddən saray yapmışıq,*
*Dolları cibində qat salan kişi,*
*Papaq itirmişik, çadır tapmışıq.*

*Örtün, çadırların üstünü örtün,*
*Çadır bəxtimizə qara yazıdır.*
*Çadırda göylərə ucalan əllər,*
*Bəndənin tanrıya etirazıdır.*

*İlahi, sən bizi qara daş yarat,*
*Yusun bu günahı zaman aparsın.*
*Ay tanrım, sən elə, elə iş yarat,*
*Silsin bu çadırı tufan, aparsın*

Bir sözlə, Mirzə Mirimli mənsub olduğu xalqın dərdi ilə yaşadığını və zaman-zaman onu elə bu dərdin böyütdüyünü bu əsəri ilə kifayət qədər göstərə bilir.

İbrahim İlyaslını istedadlı və vicdanlı qələm sahibi kimi tanıyıram. Düşünürəm ki, əgər təkcə elə bu əsər onun əlinə düşsəydi, bölgədə necə möhtəşəm əsərlərin yazıldığına nümunə kimi də göstərərdi. Nəysə, Mirzə Mirimli zəngin şairdir. Düşünən, düşündürən əsərləri ilə duyğuları səfərbər etmək gücündə olan şairdir. "Tapdanmış qeyrət" poeması bunun ən bariz nümunəsidir və bir daha təkar etməyə dəyər ki, görkəmli şair Zabil Pərviz demiş Qarabağ vandallarına və dünya riyakarlığına BMT-nin tribunasından səslənəsi ittihamdır.

"Dəli də olmadıq belə dünyada" - bu da kitabda ikinci bölmənin adıdır. Və elə bu bölmədə də biz insan və dünya savaşının görünməyən qanlarla müşayiət olan meydanını görürük. Burada belə bir şeir var: "Bu kəl bu şələni aparan deyil". Kəl xalq arasında güc, qüvvət rəmzi kimi işlədilən obrazdır. Və o, bu obrazı özünə müncər edir.

Həqiqətən İkinci Qarabağ savaşına qədərki güc nisbətlərinin fonunda dünya əyriliyinin, dünya yükünün bir kəlin gücünə (oxu. Bir şair hünərinə) çəkilməsi mümkünsüz görünürdü. Mirzə də elə bu mənzərəni həmin şeirdə vermək istəyib:

*Ovxarlı qılıncı ömrümə qənim,*
*Bu dərdlə qarıyıb, yaşamaq çətin,*
*Qurğuşun yükündü, yükü şələmin,*
*Qaldırıb sabaha daşımaq çətin,*
*Bu kəl bu şələni aparan deyil.*

*Xırmanın başına vəl dolandırır,*
*Fələyin çərxini kəl dolandırır.*
*Kiminin üstündə tanrı kölgəsi,*
*Kimini görünməz əl dolandırır,*
*Bu kəl bu şələni aparan deyil.*

*Ümid gözlərində saman çöpüdü,*
*Hərlənir, firlanır, gözü dirənir.*
*İçində boğulur ahı, naləsi,*
*Qayışa güc verir, dizi dirənir.*
*Qisməti qamçıdı, payı qarğışdı*
*Yolu dağ-dərədi, yolu yoxuşdu,*
*Bu kəl bu şələni aparan deyil.*

*Sərilmiş dərz üstə yüz naxış vurur,*
*Əzilən torpaqdı yumruğu altda.*
*Xurcunu, çuvalı atacaq yerə,*
*Şeytan barmağı var quyruğu altda,*
*Bu kəl bu şələni aparan deyil.*

Deməli, şairin dünya həqiqətini düz görməsini, hətta etirafını da hiss edirik bu misralarda. Deməli, dünya yükünü çəkməli olan kəlin hətta gücü çatsa belə, şərlə silahlanmış zaman o kəlin quyruğunun altına şeytan barmağı göndərir.

Mücərrəd, yazdığı ilə nəyi demək istədiyini heç özü də bilməyən şairlərdən fərqli olaraq Mirzə canlı xalq təfəkkürünə söykənərək maraqlı və aydın obrazlarla və çox sərbəst şəkildə özünü ifadə edə bilir.

Ümumiyyətlə, Mirzənin şeirlərində çöl qoxusu, boz yovşanlığın şairin ruhuna bəxş etdiyi genişlik duyğuları, əli uzalı qaldığı yerin, yurdun canı, nəfəsi aşıq-aşkar duyulur.

Mirzə poetik məsləhətlər verməyi də əsərlərində məziyyətə çevirə bilir. Ancaq onun məsləhətləri qətiyyən nəsihətçiliyə yön almır. Onun təklif və təkidlərində (məsləhətlərində) cinayətə ədalətli hakimin hökmünə bənzər məqamlar az deyil: "Daşan qabın alovunu, Tor quranın tilovunu, Bədöy atın cilovunu, Çəkmədən düzələn deyil. Dosta deyilmiş yalanı, Örkəni çürük palanı, Bürcü əyilmiş qalanı, Sökmədən düzələn deyil. Ətəkləmə yanan közü, Təsr silləti sözün düzü, Vətənə kəc baxan gözü, Tökmədən düzələn deyil. Əriyən qar iz saxlamır, Sönmüş ocaq köz saxlamır, O ağız ki, söz saxlamır, Tikmədən düzələn deyil".Bu şeirdəki məsləhət yönümü əslində elə həm də tərs şillədir. İnsanların mənəviyyatı ilə alver edənlərin üzünə çırpılan şillədir.

Ümumiyyətlə, Mirzənin dünya savaşı bəşəri həqiqətləri qorumaq üstündədir. O şey ki, insanın mənəviyyatını dağıtmağa yönəlib, o şey ki, insanı alçaltmağa yönəlikdir və Mirzə bu zaman dözmür, onun dünyaya savaş açmağı da təbii görünür:

*Üz verdim dərdini qoydu şələmə,*
*Sınadı məndəki dözümü dünya.*
*Sirrimi faş etdi küllü-aləmə,*
*Yaydı dildən-dilə sözümü dünya.*

*Bezdim sevgisindən, bezdim feilindən,*
*Ayırdı yurdumdan, qopdum elimdən.*
*Kimi çox sevdimsə, aldı əlimdən,*
*Yamanca yandırdı üzümü dünya.*

Bəs eləyir bilək ki, üzdən üçdə alacağı, beşdə verəcəyi olmayan kimi görünən Mirzə dünya ilə də haqq-hesab çəkmək gücündədir.




Kitabın üçüncü bölməsində (Bir gözəl küsdürdüm) Mirzənin lirik şeirləri toplanıb. Sevginin, məhəbbətin və eşqin mərhələlərini ilahi kamillik yolunda sözü ilə keçən Mirzə eşqində də, sevdasında da səmimidir. İnsan hisslərini uca tutanlar üçün doğmadır: "*Ovunmaq mümkünmü xatirələrə, Sən adda ünvana yol gəlmişəm mən, Gülüm, bu səfərdən necə qayıdım, İllərlə səbrimə bükülmüşəm mən. Ümiddən o yana yol qalmayıb, bil, Sən elə kəsdin ki, bərəni, bəndi, Onsuz da bu sevgi köhnələn deyil, Sinəmdə bir eşqin yeri göynədi*". "Bizim papaq qoyan vaxtımız deyil" bölməsinə müəllifin mənəvi aşınmalara etirazını göstərən şeirləri toplanıb. "Daş qürbətə düşüb". "Giley", "Başım üstə zaman əsdi" şeirləri ayrıca təhlil tələb edir.

Kitabda verilmiş "Bir kəndin nağılı" poeması Şəhriyar ədəbi məktəbinin davamçısı Mirzə Mirimlinin kifayət qədər yetkinliklə, sənətkarlıqla yazılmış əsəridir.

"İtmiş kəndin xatirələri" Mirzənin yaddaşında çözüldükcə doğma yerlərin xəritəsi yaddaşdan silinməyən adların xatirəsi gözlərimiz önündə canlanır. Poemanın son misraları ötmüş həyatın təəssüfləri kimi səslənir: "Doğma kəndim, kül altında qor oldum, Bir sevdanın tüstüsünə kor oldum, Dağ çayıydım, axa-axa duruldum". Bu da yaşının kamillik çağında 65-i yola salmış şairin qəlbinin duruluğu ilə dünyaya bir cür salamıdır. Sözünün ucalığından baxıb həyatının ötüb-keçən günləri ilə həsbi-hal sorağıdır.

Vallah Mirzə Mirimli şairdir, özü də böyük şairdir.

Böyük şairliyin bir əlaməti də elə Mirzə kimi uzaqda dayanmaqdır, bəlkə heç gözə görünməməkdir.

* * *

Şair Mirzə Mirimli həm də sərrast sözü ilə özünüifadə imkanlarını təsdiq edən publisistdir. Onun "Yaşanmış ömrün işığı" (Hidayət Səfərli ilə birlikdə), "Köçkün taleli məktəb" və "24 günün hünəri" (2022) adlı publisistik kitabları da nəşr olunub.

İkinci Qarabağ savaşı təkcə Azərbaycanın tarixi taleyində yeni mərhələ deyil, elə ədəbi publisist sözün də, bir sözlə, ədəbiyyatın da yeni mərhələsinin başlanğıcıdır. Savaş günündən başlayaraq yazıçılar, publisistlər, şairlər öz sözləri ilə Səməd Vurğun demiş, müsəlləh oldular. Düşmənə qarşı söz savaşına başladılar. Azərbaycan əsgəri - Azərbaycan ordusu öz sözləri ilə döyüşən söz-sənət adamlarını da öz yanında gördü. Mirzə Mirimli "24 günün hünəri" kitabını öz həmkəndlisi, qəhrəman zabit Elsevər Paşayevin döyüş yoluna həsr edib. Qəhrəman Elsevər həyatını 2 gündə başa çatdırdı, ancaq bu 24 gündən sonra o əbədi yaşamaq haqqı qazandı. Kitabın annotasiyasında yazılır: "24 günün hünəri" kitabında torpaqlarımızı erməni quldurlarından təmizləyərkən qəhrəmanlıqlar göstərərək şəhidlik zirvəsinə ucalmış igid komandir, milli ordumuzun cəsur mayoru Elsevər Vaqif oğlunun qısa, lakin şərəfli ömür yolunun maraqlı məqamlarından söhbət açılır. Kitabda Qarabağın tarixi, Birinci Qarabağ və Vətən müharibəsi, qəhrəmanımızın döyüş yolu, dostlarının, yaxınlarının Elsevər haqqında xatirələri geniş yer almışdır. Ümidvarıq ki, kitab oxucular tərəfindən maraqla qarşılanacaq". Ən azı ona görə ki, bir Azərbaycan qəhrəmanının həyatının parlaq səhifələri gələcək nəsillər üçün yaddaş kitabı kimi oxunacaq.

Yeri gəlmişkən, qeyd edək ki, Elsevər Paşayev beynəlxalq miqyaslı hərbi təlimlərdə iştirak edib. Əfqanıstanda sülhməramlıların tərkibində xidmət zamanı Amerika səfiri ilə görüşüb və Azərbaycan həqiqətləri haqqında danışıb. O, 2016-cı ilin Lələtəpə savaşlarında da qəhrəmanlıq göstərib. Nəhayət, 2020-ci ilin İkinci Qarabağ savaşında 24 gün ərzində dəfələrlə fərqlənib. Ölkə Prezidentinin sərəncamı ilə "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub. Elsevər Paşayevin ömür yolu döyüş dostlarının yaddaşında davam edəcək. İki qız övladı da onun adı ilə həmişə fəxr edəcək.

Müəllif son sözündə yazır: "Elsevərin atası Vaqif müəllimlə demək olar ki, gəncliyimiz birgə keçib. Doğulduğumuz kəndin insanları bir-birinə qarşı hədsiz mehriban idilər. Eyni məktəbdə işləyirdik. Məktəbə ən yaxın ev Elsevərgilin evi idi". Müəllifin bu qeydləri belə bir təəssürat yaradır; bundan sonra elə dirçələn, yenidən boy atıb qalxan Qarabağda əsas məktəb elə Elsevər kimi qəhrəmanların doğulduğu ev olacaq.

Kitabda çox təsirli xatirələr var.

Doğrudur, bütün qəhrəmanların heykəli mənsub olduqları xalqın qəlbində ucalır. Amma hər halda Mirzə Mirimlinin "24 günün hünəri" kitabı da qəhrəman Elsevər üçün əbədiyaşarı bir abidədir.

***Əli Rza XƏLƏFLİ***
***16.08.2022***